# Demoqrafiya təhdidi Azərbaycanda da böyüyür...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

**Aparılan hesablamalar göstərir ki, 2025-ci ildə ölkə üzrə əhalinin sayı 37462 nəfər və ya 0,4 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 10262 351 nəfərə çatıb. Dövlət Statistika Komitəsinin 2025-ci ildə ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərini əks etdirən nəşrində qeyd edilir ki, ölkə əhalisinin 54,3 faizini şəhər, 45,7 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.**



Qeyd edilənlər kontekstində diqqətçəkən daha bir məqam odur ki, Azərbaycanda nikah və boşanmaların da sayı azalıb. Belə ki, Ədliyyə Nazirliyinin rayon və şəhər qeydiyyat şöbələri tərəfindən keçən il ərzində ölkədə 48 min 546 nikaha daxilolma və 20 min 675 boşanma halları qeydə alınıb. 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,9-dan 4,7-yə, boşanmaların sayı isə 2,1-dən 2-yə düşüb.

### Nikaha daxil olan insanların sayı sürətlə azalır

Ekspertlər hesab edir ki, bütün bunlar demoqrafik artıma mənfi təsir edir. Ümumiyyətlə, görünən odur ki, son illərdə Azərbaycanda ailə institutunda müəyyən dəyişikliklər yaşanır. Statistik göstəricilər nikahların sayının azalması, boşanmaların isə müəyyən dövrlərdə artması və ya sabit qalması, bəzən də qismən azalması tendensiyasını göstərir. Bu proseslər təkcə sosial deyil, həm də demoqrafik baxımdan mühüm nəticələr doğurur. Çünki ailə və nikah cəmiyyətin əsas demoqrafik mexanizmlərindən biri hesab olunur və əhalinin artımı, nəsillərin yenilənməsi və sosial sabitlik bu institutdan birbaşa asılıdır.

Rəsmi statistikaya görə, Azərbaycanda nikahların sayı son illərdə müəyyən qədər azalma tendensiyası göstərir. Yuxarıda qeyd edildiyi kimi, 2025-ci ildə ölkədə hər 1000 nəfərə təxminən 4,7 nikah düşüb ki, bu da müstəqillik dövründə ən aşağı göstəricilərdən biri hesab olunur. Müqayisə üçün qeyd edək ki, 1991-ci ildə bu göstərici 10,4 idi. Bu isə göstərir ki, son onilliklərdə nikaha daxil olan insanların sayı xeyli azalıb. Eyni zamanda, doğum göstəricilərində də azalma müşahidə edilir. 2025-ci ildə Azərbaycanda Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən 95 min 875 doğulan körpə qeydə alınıb. 2024-cü ildə bu rəqəm 102 min 310 olub. Bu da əhalinin təbii artım tempinin zəifləməsinə səbəb olur. Məsələn, 1991-ci ildə təbii artım hər 1000 nəfərə 20,4 nəfər olduğu halda, son illərdə bu göstərici təxminən 4 nəfərə qədər enib. Nikahların azalmasının əsas demoqrafik nəticələrindən biri doğum səviyyəsinin aşağı düşməsidir. Azərbaycan cəmiyyətində uşaqların böyük əksəriyyəti nikahlı ailələrdə dünyaya gəlir. Buna görə də nikahların sayının azalması avtomatik olaraq doğumların azalmasına gətirib çıxarır. Doğum səviyyəsinin aşağı düşməsi isə uzunmüddətli perspektivdə əhalinin yaş strukturunun dəyişməsinə, yeni yaşlı insanların payının artmasına səbəb ola bilər. Bu vəziyyət gələcəkdə əmək bazarında problemlər yarada və iqtisadi inkişafın tempini zəiflədə bilər. Boşanmaların artması və ya yüksək səviyyədə qalması da demoqrafik vəziyyətə mənfi təsir göstərir. Boşanma nəticəsində ailələr parçalanır, bu isə uşaqların sayına və onların sosial inkişafına təsir edir.

Statistik məlumatlara görə, Azərbaycanda boşanmalar nəticəsində hər il minlərlə uşaq valideynlərindən biri ilə yaşamaq məcburiyyətində qalır. Məsələn, bir ildə boşanmalar nəticəsində təxminən 19 minə yaxın uşaq yalnız bir valideynlə qalır. Bu halın demoqrafik nəticələri bir neçə istiqamətdə özünü göstərir. Birincisi, boşanmış ailələrdə ikinci və ya üçüncü uşağın dünyaya gəlmə ehtimalı azalır. İkincisi, tək valideynli ailələrdə iqtisadi və sosial çətinliklər daha çox olur ki, bu da gələcəkdə uşaqların həyat keyfiyyətinə təsir edə bilər. Üçüncüsü, boşanmaların artması gənclərin ailə qurmağa münasibətinə də təsir edir və bəzi hallarda nikahdan çəkinməyə səbəb olur.

### Ailə institutunun gücləndirilməsi zəruri şərtdir

Digər mühüm məsələ isə nikah yaşının artmasıdır. Müasir dövrdə bir çox gənclər əvvəlcə təhsil almağa, karyera qurmağa və maddi vəziyyətini yaxşılaşdırmağa çalışır. Bu səbəbdən nikah yaşı yüksəlir və ailə qurma prosesi gecikir. Nikahın gecikməsi isə doğumların sayını və ailədə uşaqların ümumi sayını azalda bilər. Bu proses də demoqrafik artım tempinin aşağı düşməsinə səbəb olur.

Bununla yanaşı, sosial və iqtisadi faktorlar da nikahların azalmasına təsir edir. Mənzil problemləri, işsizlik, həyat səviyyəsinin bahalaşması və digər iqtisadi çətinliklər gənclərin ailə qurmasını gecikdirir. Bu faktorlar xüsusilə böyük şəhərlərdə daha çox müşahidə olunur. Maddi sabitliyin olmaması ailələrin uzunmüddətli planlar qurmasını çətinləşdirir və nəticədə nikahların sayına təsir edir. Demoqrafik baxımdan nikah və ailə institutunun zəifləməsi gələcəkdə əhalinin sayına və strukturuna ciddi təsir göstərə bilər. Əhalinin artım tempinin azalması əmək bazarında işçi qüvvəsinin çatışmazlığına, sosial təminat sisteminə əlavə yük düşməsinə və iqtisadi inkişafın ləngiməsinə səbəb olur. Buna görə də bir çox ölkələr ailə institutunun möhkəmləndirilməsi üçün müxtəlif sosial proqramlar həyata keçirirlər. Fakt odur ki, Azərbaycanda nikahların azalması və boşanmaların artması demoqrafik vəziyyətə mənfi təsir göstərən mühüm amillərdən biridir. Bu proses doğum səviyyəsinin azalmasına, əhalinin təbii artım tempinin zəifləməsinə və sosial strukturda dəyişikliklərə səbəb olur. Buna görə də ailə institutunun gücləndirilməsi, gənclərin ailə qurmasına dəstək verilməsi və sosial-iqtisadi problemlərin həlli demoqrafik sabitliyin qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Ailə institutunun möhkəm olması cəmiyyətin sabitliyi, sosial inkişafı və demoqrafik balansın qorunması baxımından böyük əhəmiyyət daşıyır. Bu səbəbdən müasir dövrdə ailə institutunun gücləndirilməsi hər bir dövlət və cəmiyyət üçün vacib məsələlərdən biri hesab edilir. Ailə institutunun möhkəmləndirilməsinin digər vacib tərəfi demoqrafik sabitliyin qorunmasıdır. Cəmiyyətin təbii artımı əsasən ailələrdə doğulan uşaqlar vasitəsilə təmin edilir. Sağlam ailə münasibətləri və sabit nikahlar doğum səviyyəsinin qorunmasına və əhalinin artım tempinin davamlı olmasına kömək edir. Əksinə, ailə institutunun zəifləməsi, boşanmaların artması və nikahların azalması doğum göstəricilərinə mənfi təsir göstərərək demoqrafik problemlərə səbəb olur. Eyni zamanda, ailə milli və mədəni dəyərlərin qorunub saxlanılmasında mühüm rol oynayır. Hər bir xalqın adət-ənənələri, mənəvi dəyərləri və həyat tərzi əsasən ailə mühitində nəsildən-nəslə ötürülür. Ailə daxilində uşaqlara milli kimlik, vətənpərvərlik və mənəvi məsuliyyət hissi aşılanır. Buna görə də ailə institutunun zəifləməsi təkcə sosial deyil, həm də mədəni problemlərə gətirib çıxarır.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur.***